AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

13 MAY 2025-ci il | ÇƏRŞƏNBƏ AXŞAMI | № 97 (8145) | GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET | WWW.RESPUBLIKA-NEWS.AZ

# Birliyimizin və həmrəyliyimizin parlaq QƏLƏBƏSİ




## Tarixi Zəfərimiz milli iradənin, milli ruhun təntənəsi, dövlətçiliyimizin qürur və şərəf rəmzidir

*"Biz 44 gün ərzində hər gün irəli gedirdik, hər gün itkilər verirdik, şəhidlər verdik... Hər gün yeni uğurlar əldə edirdik, hər gün hansısa kəndləri azad edirdik. Bu, bizə əlavə ruh verirdi, əlavə güc verirdi. Xalqımız tam birləşdi. Bu, mənə Ali Baş Komandan kimi əlavə mənəvi ruh verirdi. Bu, bizim hamımızın Qələbəsidir". Bu barədə Prezident İlham Əliyev Ağdam Muğam Mərkəzinin açılışında bildirib. Dövlət başçısı qeyd edib: "Təsadüfi deyil ki, Azərbaycana dünyada olan münasibət, - hətta bizə düşmənçilik edən dairələr, qüvvələr, ölkələr bilirlər ki, biz ləyaqətli xalqıq, hörmətə layiq olan xalqıq və bizimlə hesablaşmaq lazımdır. Ən azı yaşadığımız bölgədə bizimlə bu gün hesablaşmayan sabah peşman olur".*

Adətən bütün müharibələr torpağa, əraziyə görə başlayır. Müharibə işğalçılıq niyyətidir. Ermənistan da Azərbaycana qarşı elan etmədən müharibəyə bu niyyətlə başlamışdı. Torpaqlarımızın işğaldan azad edilməsi prosesi çətin mərhələlərdən keçib. Ermənistanın sülh danışıqlarından yayınması münaqişənin həllini daha da gərginləşdirirdi. Bu Böyük Zəfəri düz 30 il gözlədik. 30 ilin əziyyəti, ümidsizliyi, əzabları xalqımızı sındırmadı, iradəmizə heç bir mənfi təsir göstərmədi. Əksinə, biz daha da bütövləşdik, daha da mətinləşdik, daha da gücləndik, özümüzü toparladıq. Ümidlə gözlədik, həsrətlə gözlədik. Belə qarşıdurmalar işğalçılıqla vətənsevərliyin qarşıdurması kimi təzahür edirdi. Atəşkəsə əməl etməyən düşmən istər Ermənistanla Azərbaycan sərhədlərindən, istərsə də işğal etdiyi ərazilərdən tarpaqlarımızı iriçaplı atıcı silahlardan, artilleriya qurğularından atəşə tuturdu. Azərbaycan Ordusunun hissələri cavab atəşi ilə düşməni susdururdu.

Nəhayət, 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. Qısa müddətdə Azərbaycanın ordu hissələri düşmənin müdafiə səddini dağıtdı, hərbi resurslarını məhv etdi. Azərbaycan Ordusunun gücü, qüvvəti, qüdrəti qarşısında dayana bilməyən məğlub ordunun şəxsi heyəti döyüş texnikalarını, silahlarını ataraq qaçırdı. Azərbaycan Ordusunun bölmələri döyüşə-döyüşə qələbələr qazanırdı, qələbələr qazana-qazana döyüşürdü. Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan işğaldan azad edildi. Noyabrın 8-də ruhumuzun şəhəri olan Şuşa da işğaldan azad olundu. Bu qələbə Vətən müharibəsini başa çatdırdı, Ermənistan ordusu darmadağın edildi. Azərbaycan Ordu bölmələri mükəmməl hərbi strategiyası, taktikası ilə Ermənistan ordusunu döyüşlərdə məğlub etdi, torpaqlarımız işğaldan azad olundu. 30 il çəkən mənəvi sıxıntılara, ağrı-acılara son qoyuldu. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Hər kəs əmin oldu ki, Azərbaycan Ordusunun qüdrəti düşmənin düşündüyündən çox güclüdür. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.

(davamı 2-ci səhifədə)

**(əvvəli 1-ci səhifədə)**

Müxtəlif təşkilatların illərlə həll edə bilmədiyi, həll etmək istəmədiyi problemi Azərbaycan Ordusu 44 gün ərzində həll etdi. Vətən müharibəsi, xüsusən Şuşa əməliyyatı hərb tariximizin ən parlaq səhifəsidir. XXI əsrin müharibəsini aparan Azərbaycanın döyüş təcrübəsi və taktikası hərbi mütəxəssislər tərəfindən yüksək qiymətləndirilir, dünyanın aparıcı hərbi məktəblərində öyrənilir. İlk dəfə idi ki, pilotsuz uçuş aparatları döyüş meydanında bu miqyasda, indiyədək görünməmiş uğurla tətbiq olunmuşdu. Bununla yanaşı, yolsuzluq şəraitində, yüngül silahlarla günlərlə yorulmadan uzun məsafə qət etmək, keçilməz sayılan yolları keçərək Şuşanı azad etmək misli görünməmiş igidlik, qəhrəmanlıq nümunəsi kimi dəyərləndirilir. Zəfər ovqatı böyük coşqu ilə, ruhun bayramı səviyyəsində yaşanıldı.

2020-ci il dekabrın 10-da Azadlıq meydanında keçirilən hərbi paradda qalib ordunun əsgər və zabitlərinin nizami yerişi hamıda qürur hissi doğurdu. Bu paradda Ermənistanın döyüşlərdə itirdiyi, əsgər və zabitlərinin atıb getdiyi döyüş texnikaları, artilleriya qurğuları, maşınları da göstərildi - düşmənlərimizə gözdağı kimi. Azərbaycan Prezidenti İlham Əliyev Hərbi Qənimətlər Parkının yaradılmasına göstəriş vermişdi. Bu istiqamətdə işlər qısa müddətdə yekunlaşdı, açıq səma altında park salındı. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqımızın 30 ilə yaxın həsrətlə gözlədiyi bu şad xəbəri Azərbaycan vətəndaşlarına noyabrın 8-də sübh tezdən Şəhidlər xiyabanından çatdırdı: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!".



## *Tarixi Zəfərimiz milli iradənin, milli ruhun təntənəsi, dövlətçiliyimizin qürur və şərəf rəmzidir*

Azərbaycan ordusu hərbi güc reytinqinin hansı səviyyədə olduğunu 44 günlük müharibədə əyani surətdə göstərdi və nəyə qadir olduğunu bütün dünyaya sübut etdi. Elə bu gücün qarşısının alınmaz olduğunu görən işğalçı Ermənistan da kapitulyasiya aktını imzalamaq məcburiyyətində qaldı. Hərbçilərimizin Şuşanı azad etməsi isə tarixə qızıl hərflərlə yazılan qəhrəmanlıq, əzm və peşəkarlıq nümunəsidir və onun analoqu yoxdur. Bu əzmi, gücü yalnız torpağı işğal altında olan ölkənin qəhrəman əsgərləri göstərə bilərdi. Bu baxımdan, qalib ordumuzun Vətən müharibəsindəki taktikası dünya ölkələri tərəfindən hələ də öyrənilməkdədir.

Hərbi Qənimətlər Parkı Vətən müharibəsində qazanılan qələbənin nişanələrindəndir - bu nişanə Azərbaycan Ordusunun qürur, Ermənistan ordusunun məğlubiyyət rəmzi kimi gələnlərin, görənlərin düşüncələrinə hopur. Parkda ermənilərin qoyub qaçdığı atıcı silahlar, ağır texnikalar, raket kompleksləri, hərbi nəqliyyatlar və digər sursatlar qənimət-eksponat kimi göstərilir.

Ali Baş Komandanın diqqət və qayğısı ilə dünyadakı ən müasir silahlar hazırda Azərbaycan Ordusunun arsenalına daxil olmaqdadır. Müxtəlif xarakterli modern silah sistemləri alınır. Hərbi texnologiya inkişaf edir və Azərbaycan həmişə ən yaxşı texnologiyaları almaq arzusunu da gizlətmir. Yeni Silahlı Qüvvələrin döyüş qabiliyyətinin artırılması strateji vəzifə olaraq diqqət mərkəzindədir. Yüzlərlə zirehli texnika, bir çox gözətçi gəmiləri, hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, ən müasir standartlara cavab verən qurğular, döyüş təyyarələri, hərbi və nəqliyyat helikopterləri, kəşfiyyat və döyüş pilotsuz uçuş aparatları, artilleriya qurğuları, uzaqmənzilli raketlər, yaylım atəşli raket sistemləri, əməliyyat-taktiki raket kompleksləri hərbi gücümüzün göstəricisidir. Ordumuz xidməti yüksək səviyyədə aparmaq üçün bütün imkanlara malikdir. Prezidentin göstərişi ilə bütün hərbi hissələr, şəhərciklər, hərbi bazalar faktiki olaraq yenidən qurulur. Hərbi hissələrin 90 faizində tikinti-bərpa, yenidənqurma tamamlanıb. Bu gün Azərbaycan dünya miqyasında öz gücünə arxalanan və heç kimdən asılı olmayan ölkədir.

Azərbaycanın çoxəsrlik tarixinin ən şanlı səhifəsini təşkil edən qırx dörd günlük Vətən müharibəsi milli iradə, milli ruh, milli ləyaqət təntənəsi, milli dövlətçiliyimizin qızıl tarixi, qürur və şərəf rəmzidir. Müharibədə böyük qələbələrin əsasında duran ən başlıca amil xalq-dövlət-ordu birliyinin sarsılmaz vəhdətinin təmin olunmasıdır. Cənab İlham Əliyev Prezident kimi fəaliyyətə başlayanda bu vədi açıqladı ki, Azərbaycan Bayrağı işğal altında olan bütün torpaqlarımızda ucaldılacaq. Hər gün, hər saat bu müqəddəs məqsədə doğru irəlilədik. İkinci Qarabağ müharibəsi dünya azərbaycanlılarının birliyinin sarsılmazlığını, xalqımızın Vətən torpaqlarının azad edilməsi naminə "Dəmir yumruq" kimi birləşdiyini nümayiş etdirdi. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar, habelə Azərbaycanın haqq işinə dəstək verən digər xalqların nümayəndələri erməni lobbisinin apardığı çirkin kampaniyalara qarşı fədakarlıqla fəaliyyət göstərdilər. Müharibənin gedişində xalq-dövlət-ordu birliyi daha da möhkəmləndi. Azərbaycanın bütün vətəndaşları etnik, sosial, dini baxımdan bütövlük nümayiş etdirdi, ön və arxa cəbhədə mükəmməl birlik yarandı. Prezidentimiz daima xalqı ilə, xalq da öz Prezidenti ilə birlikdədir. Məhz bu birliyin, həmrəyliyin reallığıdır ki, Prezidentimizin ilk gündən çağırışına bütün Azərbaycanın igid oğulları, ehtiyatda olan əsgər və zabitləri səs verərək, müsəlləh əsgər kimi döyüş meydanına yollandılar, torpaqlarımızın azadlığı yolunda canlarından keçərək Şəhidlik zirvəsinə yüksəldilər. Qəlbində Vətən sevgisini, torpağa bağlılıq hisslərini daşıyanlar Vətən torpağının hər qarışı üçün canlarından keçdilər.

İllərdən bəri bizə xəyal kimi görünən qələbə ilə torpaqlara qayıdış artıq cənab Prezidentin uzaqgörən siyasəti, müzəffər ordunun rəşadəti sayəsində reallığa çevrildi. Vətən müharibəsində qazanılmış Zəfərdən dərhal sonra azad olunmuş ərazilərin bərpasına başlanıldı. Biz bu torpaqlarda əbədi yaşayacağıq, dağıdılmış bütün şəhər və kəndlərimizi bərpa edəcəyik. Dövlət başçımız Şuşa, Qubadlı, Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olarkən yeni layihələrin həyata keçirildiyini hər kəs gördü. İşğaldan azad edilmiş bütün şəhər və rayonların baş planlarının hazırlanması ilə bağlı Prezidentin tapşırığı icra olunur. Artıq ölkəmiz üçün yeni bir dövr başlayıb. Bu yeni dövr böyük imkanlar açır, təkcə iqtisadi sahədə yox, eyni zamanda siyasi münasibətlər sahəsində müsbət meyillər daha da güclənir.

Ordu xalqın, xalq ordunun dayağıdır. 44 günlük Vətən müharibəsində də xalq əsgərinə olan güvənini, dəstəyini əsirgəmədi. Düşmənin başını əzən "dəmir yumruq" məhz dövlət, xalq, ordu birliyinin yumruğu oldu. Bir sözlə, xalq-iqtidar birliyi Azərbaycanda sabitliyi şərtləndirən əsas amildir və gündən-günə güclənir. Bu gün Azərbaycan dünya miqyasında ən sabit ölkələrdən biridir və o ölkədir ki, xalq-iqtidar birliyi onun uğurlu inkişafını müəyyən edir. Aparılan uğurlu siyasət ictimaiyyət tərəfindən dəstəklənir və ictimaiyyət də görür ki, bu siyasət real, konkret nəticələrə gətirib çıxarır. Prezident İlham Əliyevin daim xalqla bir yerdə olması, xalqın maraqlarını ifadə etməsi, verilən tapşırıqların icrası ilə yerində maraqlanması, dövlət xidmətlərinin keyfiyyətinin və əlçatanlılığının daim artırılması, Prezidentin tapşırığı ilə mərkəzi hakimiyyət qurumlarının rəhbərlərinin regionlarda mütəmadi keçirdikləri görüşlər, biznesə yaradılan münbit şərait, xarici siyasətdə uğurlar, ordu quruculuğu xalqın dövlət institutlarına etimadını yüksəldib.










Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Şuşa, Xocalı və Ağdam rayonlarına növbəti səfəri ölkəmizin bu bölgələrdə həyata keçirdiyi genişmiqyaslı bərpa və quruculuq işlərinin ardıcıl, planlı şəkildə davam etdirildiyini bir daha nümayiş etdirir. Bu səfər yalnız görülən işlərə baxış xarakteri daşımır, həm də dövlət başçısının rəhbərliyi ilə bölgədə aparılan böyük yenidənqurma prosesinə verilən yüksək siyasi iradənin, xalqla birbaşa təmasın və praktiki nəzarətin təzahürüdür. Mayın 9-da Şuşa rayonunun Daşaltı kənd məscidinin, Şuşa Müalicə-Sağlamlıq Mərkəzinin açılışı olub, şəhərdə inşa ediləcək dördüncü yaşayış kompleksinin təməlqoyma mərasimi keçirilib. Azərbaycanın mədəniyyət beşiyi sayılan Şuşa 2020-ci il noyabrın 8-də işğaldan azad edildikdən sonra burada genişmiqyaslı tikinti-quruculuq prosesinə başlanılıb. Bu gün şəhər tarixi siması və mədəni irsi qorunub saxlanılmaqla bərpa olunur, doğma sakinlərinə yenidən qucaq açır. 2023-cü ilin sonlarından etibarən keçmiş məcburi köçkünlərin doğma şəhərə qayıdışı təmin olunmağa başlanıb. İndiyədək Şuşaya 376 ailə - 1409 nəfərdən artıq sakin köçürülüb. Bu proses hazırda da mərhələli şəkildə davam etdirilir. Şuşa bu gün nəinki mədəniyyətimizin beşiyi, həm də azadlığımızın, milli birliyimizin və gələcəyə inamımızın simvoluna çevrilib. Dövlət başçısının səfəri zamanı burada "Xocalı" yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin və "Qoç Ət" Kəndli Fermer Təsərrüfatı MMC-nin Xocalı rayonunun Xanabad kəndi ərazisində yerləşən heyvandarlıq kompleksinin açılış mərasimində iştirak etməsi bölgənin inkişafına göstərilən yüksək diqqətin bariz nümunəsidir. Xocalı artıq yalnız kədərin deyil, həm də ümidin, dirçəlişin və ləyaqətli həyatın şəhəridir. Artıq insanların doğma yurdlarına qayıdışı ilə həmin torpaqlar yenidən canlanır.

Mayın 10-da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümündə cənab Prezidentin Ağdama səfəri, rayonun Kəngərli kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olması, sonra kəndə köçən bir qrup sakinlə görüşü mühüm əhəmiyyət kəsb edir. Dövlətimizin başçısı görüşdə Ağdam sakinlərinə növbəti şad xəbəri də verdi. Cənab Prezident qeyd etdi ki, rayonun Xıdırlı kəndi də demək olar ki, açılışa hazırdır və yaxın aylarda orada da həyat qaynayacaq. Ölkə başçımız rayona səfəri çərçivəsində, həmçinin Ağdam vağzal kompleksinin və Ağdam Muğam Mərkəzinin açılışında da iştirak etdi. Bütün bunlar onu deməyə əsas verir ki, bir neçə ildən sonra Ağdam öz gözəlliyi və bənzərsizliyi ilə hər kəsi valeh edəcək. Ağdam Muğam Mərkəzinin təməli 2023-cü ilin mayında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub. Mərkəzdə kafe, kinozal, kitabxana və iki rəqs zalı yaradılıb. Buradakı 507 yerlik konsert zalında müxtəlif mədəni tədbirlər, o cümlədən muğam konsertləri təşkil etmək üçün hərtərəfli şərait var. Mərkəzdə 14 dərs otağı, sərgi salonu, iclas zalı və digər otaqlar yaradılıb. Mərkəz Qarabağ bölgəsində qədim muğam sənəti incisinin işğaldan əvvəlki şöhrətinin bərpası, tədrisi və təbliğində, gənc nəsildə muğama sevginin aşılanmasında da mühüm rol oynayacaq.

Prezident İlham Əliyevin rəhbərliyi ilə bu torpaqlarda həyat yenidən qaynayır. Qarabağ və Şərqi Zəngəzur artıq təkcə xatirələrin yox, həm də gələcəyin, inkişafın və rifahın rəmzinə çevrilir.

**Mustafa KAMAL,**
**"Respublika".**